BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2010*

# CƏNUBİ AZƏRBAYCANDAN GƏLMİŞ MÜHACİRLƏRİN AZƏRBAYCAN SSR-DƏ ƏMƏK FƏALİYYƏTİ (1947-1991-Cİ İLLƏR)

**X.Ə.BALAYEV**
***AMEA İnsan Hüquqları İnstitutu***
***Xaqan28@gmail.com***

*Məqalə Cənubi Azərbaycandan gəlmiş mühacirlərin Azərbaycan SSR-də əmək fəaliyyəti məsələlərinə həsr olunmuşdur. Azərbaycan rəhbərliyi, partiya-sovet orqanları tərəfindən mühacirlərin böyük diqqət və qayğı ilə xalq təsərrüfatının müxtəlif sahələrində işlə təmin olunmasına və onların əmək fəaliyyətinə aid faktlar çoxlu arxiv sənədləri əsasında açılıb göstərilir. Məqalədə, həmçinin, mühacirlərin böyük əksəriyyətinin fədakarcasına çalışmalarından, onların əməyinin yüksək qiymətləndirilmələrindən, dövlət mükafatları ilə təltif olunmalarından bəhs edilir.*

1946-cı ilin dekabrında Cənubi Azərbaycandakı demokratik hərəkat İran silahlı qüvvələri tərəfindən məğlubiyyətə uğradıldıqdan sonra minlərlə insan təqibdən qurtulmaq üçün Azərbaycan SSR-ə keçməyə məcbur olmuş və SSRİ hökuməti buna icazə vermişdi. 1946-cı il dekabrın 12-dən 1947-ci il yanvarın 1-dək 5824 nəfər sərhədi keçmişdi (2). Mühacirlərin gəlişi sonrakı illərdə də davam etmiş və 1954-cü il aprelin 15- dək onların ümumi sayı 9022 nəfərə çatmışdı (3).

Mühacirlərin məskunlaşmasından sonra Azərbaycan rəhbərliyinin qarşısında duran ikinci mühüm məsələ onların işlə təmin olunması, əmək fəaliyyətinə cəlb edilməsi idi. Azərbaycan K(b)P MK katibi Mir Cəfər Bağırov başda olmaqla Azərbaycan rəhbərliyi, mühacirlərin məskunlaşdıqları şəhər və rayonların partiya-sovet orqanları onların işlə təmin olunması üçün böyük səy göstərirdilər.

Mühacirlərin əmək fəaliyyətinə cəlb olunması prosesində özünü aydın büruzə verən cəhətlərdən biri onların kənd təsərrüfatı işlərinə daha çox meylli olmaları idi. Mühacirətin ilk aylarında onların tələsik işlə təmin olunduqları bəzi sənaye sahələrində, xüsusən tikintidə mühitə və iş rejiminə uyğunlaşmaq prosesi çətin keçdiyinə görə sonradan iş yerlərinin dəyişdirilməsi lazım gəlmişdi. “Zaqafqaziyasənayetikinti” trestində çalışan mühacirlərin həm işdə, həm də məişətdə problemlərlə qarşılaşdıqları məlum olanda, Azərbaycan K(b)P MK tərəfindən 10 may 1947-ci il tarixli qərarı ilə kənd təsərrüfatı və sovxozlar nazirliklərinə “onların Azərbaycan rayonlarında kolxoz və sovxozlarda işlə təmin olunması” haqqında tapşırıq verilmişdi (4). Əgər mühacirlərin iş sahələri üzrə məşğuliyyətinə aid aşağıda verdiyimiz “Cədvəl 1”-ə nəzər salınsa, onların ən az tikintidə çalışdıqları məlum olar. Həmin ilin oktyabr ayında Kirovabad şəhərinin kommunal təsərrüfatı sistemində çalışan 20 nəfər mühacir də bu minvalla kolxoza işə keçirilmişdi (5).

Mühacirlər respublikanın kolxoz və sovxozlarında, sənaye müəssisələrində, neft sənayesində, səhiyyə, rabitə, xidmət və ticarət sahələrində işləyir, böyük əksəriyyəti fədakar əmək nümunəsi göstərirdi. Mühacirlər cəm halda çalışdıqları Şamaxı rayonundakı Lenin adına sovxozda, Şamxor rayonundakı 10 nömrəli üzümçülük və şitillik sovxozunda böyük əmək uğurları qazanmışdılar. Lakin az sayda çalışdıqları təsərrüfatlarda da onlar öz əməkləri ilə fərqlənirdilər. Məsələn, 1953-cü ildə Ağdam üzümçülük sovxozunda işləyən 34 nəfər mühacirin hər biri min manatdan altı min manatadək mükafat almışdı. Həmin il Şamaxı rayonundakı 6 nömrəli sovxozda yarım milyon manat həcmində mükafat fondunun yarısından çoxu mühacirlərə verilmişdi (6). 1950-1952-ci illərdə Qubadakı 12 nömrəli meyvəçilik sovxozunda mühəndis işləyən Mir Mehdi Çavuşu yeni texnologiya tətbiq edərək, dövlətə milyon manatlarla gəlir gətirmişdi. Azərbaycan KP MK onun əməyini qiymətləndirərək, 100 min manat mükafat vermişdi. Çavuşu həmin pulu uşaq evlərinə, uşaq bağçalarına paylamışdı (30, 124). Ümumilikdə, doqquzuncu beşillik ərzində siyasi mühacirlərdən bir hissəsi əmək haqqından əlavə 1 milyon 940 min manat pul mükafatı almışdı (7).

Mühacirlərin cəm halında çalışdıqları təsərrüfatlarda yüksək nailiyyətlər qazanıldığını görən respublika rəhbərliyi müvafiq tədbirlər görürdü. ADF (Azərbaycan Demokratik Firqəsi) Komitəsi də mühacirlər arasında aparılan işin səmərəsinin artırılması, xahiş və təkliflərinə baxılmasının sürətləndirilməsi məqsədilə onların, imkan daxilində, bir yerə cəmlənməsində maraqlı idi. 1955-ci il yanvarın 5-də İ.Mustafayevin yanındakı geniş söhbət zamanı ADF MK sədri Çeşmazər və müavini Rəhim Qazi tərəfindən bu məsələ də qaldırılmışdı. Mingəçevir SES tikintisi idarəsinin yardımçı təsərrüfatının genişləndirilərək sovxoza çevrilməsi, həmin sovxoza əsas etibarilə demokratların işə qəbul edilməsi haqqında fikir mübadiləsi aparılmışdı (8). Elə həmin gün ADF Komitəsinin Məsələlərinə Baxılması üzrə Komissiya öz iclasında respublikanın müxtəlif rayonlarında kiçik qruplar halında yerləşən demokratların bir yerə cəmlənməsi haqqında ADF Komitəsinin təklifinə baxaraq belə qərara gəlmişdi ki, Mingəçevirdəki təsərrüfatın bazası əsasında yeni sovxoz yaradılarkən, ADF Komitəsinin bu təklifi nəzərə alınsın (9).

Azərbaycan KP MK 1956-cı il avqustun 3-də mühacirlərin məsələləri ilə əlaqədar Sov. İKP MK-ya göndərdiyi məktubda Azərbaycan SSR-də işçiləri və rəhbərliyi siyasi mühacirlərdən ibarət olan çoxsahəli bir sovxoz təşkil olunması haqqında SSRİ Sovxozlar Nazirliyinə tapşırıq verilməsini də xahiş etmişdi (10). 12 oktyabr 1956-cı il tarixli arayışda "sovxoz məsələsinin hələ həll olunmadığı" göstərilirdi (11). Arxivdə sonrakı prosesə aid sənəd yoxdur. Lakin mühacirlərin əmək fəaliyyətinə aid qərar və arayışlardan sovxozun yaradılmadığı aydınlaşır.

Mühacirlərin məşğulluğunun statistikası üzrə ilk arxiv sənədi 1954-cü il aprelin 15-ə olan məlumatlardan ibarətdir. Mühacirlərin ümumi sayının 9253 nəfər olduğu göstərilir. Məşğulluq haqqında məlumatlar tərtib etdiyimiz cədvəl 1-də əks olunmuşdur.

*Cədvəl 1*

**Mühacirlərin sahələr üzrə məşğulluğu haqqında məlumat**
**(15 aprel 1954-cü il)**

| Cəmi | Kolxozlarda | Sovxozlarda | Tikintidə | Neft sənayesində | Digər sənaye sahələrində | Mədəni-maarif müəssisələrində | Ticarətdə |
|---|---|---|---|---|---|---|---|
| 3914 | 391 | 1119 | 407 | 526 | 1021 | 523 | 197 |

Həmin arxiv sənədində göstərildiyinə görə, əmək qabiliyyətli mühacirlərdən 148 nəfəri işlə təmin olunmamışdı. 43 nəfər əmək qabiliyyətini itirmişdi. 1838 nəfər təhsil alırdı, 609 nəfər evdar qadın, 2731 nəfər məktəbəqədər yaşlı uşaq idi (12).

Mühacirlərin məşğulluğuna dair sonuncu səhih arxiv sənədi 1 mart 1985-ci ilə aid arayışdır (13). Təqdim olunan cədvəl 2 həmin arayış əsasında tərtib edilmişdir.

*Cədvəl 2*

**Mühacirlərin sahələr üzrə məşğulluğu haqqında məlumat (1 mart 1985-ci il)**

| Cəmi | Sənayedə | Tikintidə | Nəqliyyatda | Kənd təsərrüfatında | Səhiyyədə | Elm, mədəniyyət və maarifdə | Rabitədə | Xidmət və ticarət sahəsində |
|---|---|---|---|---|---|---|---|---|
| 5.426 | 964 | 370 | 436 | 1.268 | 886 | 630 | 64 | 808 |

Arayışda ilk dəfə olaraq əmək qabiliyyətli bütün mühacirlərin işlə təmin olunduğu qeyd edilmişdir (1954-cü ildən 1980-ci ilədək bu cür ümumiləşdirici sənədlər tərtib olunmasa da, müxtəlif arayışlarda işləməyənlərin sayı göstərilmişdir. Azərbaycan SSR Qırmızı Aypara Cəmiyyətinin Mərkəzi Komitəsində 1980-ci il yanvarın 1-ə hazırlanmış ümumiləşdirici arayışda (14), apardığımız müqayisəli araşdırmanın nəticəsinə görə, bəzi rəqəmlərin düzgün olmadığı aydınlaşdı.

Cədvəllərdən mühacirlərin ən çox kənd təsərrüfatında və sənayedə çalışdıqları görünür (Cədvəl 2-də - 41,2 %) Kənd təsərrüfatına aid təqdim etdiyimiz misallarda olduğu kimi, mühacirlərin əksəriyyəti sənaye sahəsində də fədakar əməkləri ilə fərqlənirdilər. Onların çalışdığı bir sıra kollektivlərə "Kommunist əməyi briqadası" adı verilmişdi.

ADF Komitəsinin Məsələlərinə Baxılması üzrə Komissiya 22 may 1954-cü il tarixli iclasında "Azneft" sistemində işləyib fərqlənən siyasi mühacirlərin mükafatlandırılması haqqında" məsələ müzakirə etmiş, neftçilər mükafatlandırılmışdılar (15).

1974-cü il sentyabrın 30-da HTİ-nin (Hizbe Tucleyi İranın) Azərbaycan təşkilatı – ADF MK sədri Danişyan Azərbaycan KP MK-ya göndərdiyi məktubda yazırdı: "Gənc sosialist şəhəri əzəmətli Sumqayıtın və möcüzələr adası Neft daşlarının 25 illik yubileyi qeyd olunacaqdır. Hər iki sənaye ocağının bina olduğu ilk günlərdən indiyə qədər iranlı siyasi mühacirlərdən bir çoxları öz qardaşları ilə çiyin-çiyinə işləyib, qabaqcıllar sırasında olmaq əzmi ilə çalışmaqdadırlar.

Həmin yoldaşlar getdikcə daha zəngin təcrübə alır və öz ixtisaslarını artırırlar. Onların əmək coşqunluğunu, təşəbbüskarlığını daha da artırmaq, işə həvəsləndirib onlarda daha böyük ruh yüksəkliyi yaratmaq məqsədilə yubiley münasibətilə Sumqayıt və Neft daşları qabaqcıllarını təltif edəndə iranlı siyasi mühacirlərin də zəhmətinin nəzərə alınması xahiş olunur" (16). Mühacirlərin əməyi qiymətləndirilmişdi. Onlar Qırmızı Əmək Bayrağı ordeni, "Azərbaycan SSR-in neft ustası" fəxri adı, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı və s. mükafatlarla təltif olunmuşdular (17).

Sənaye sahəsində çalışan mühacirlərin də problemləri vaxtında və qayğı ilə həll olunurdu. ADF Komitəsinin Məsələlərinə Baxılması üzrə Komissiyanın 5 yanvar

1955-ci il tarixli iclasında “Azərbaycan SSR Neft Sənayesi Nazirliyinin müəssisələrində işləyən demokratların vəziyyəti haqqında” məsələ müzakirə olunarkən ADF MK sədri Çeşmazər məlumat vermişdi ki, onun Azərbaycan SSR neft sənayesi naziri Vəzirovla şəxsi görüşləri zamanı demokratların əmək və məişəti ilə əlaqədar bütün məsələlər müsbət həllini tapır. Komissiya onun məlumatının nəzərə alınması haqqında qərar qəbul etmişdi (18). Lakin həmin il 7 aprel tarixli iclasında həmin komissiya elə neft sənayesində ştatların ixtisarı ilə əlaqədar işsiz qalmış demokratların işlə təcili təmin olunması haqqında bir sıra nazirliklərə göstəriş verməli olmuşdu (19). Komissiya bundan sonrakı iclasında (25 iyul 1955-ci il) presedenti olmayan qərar qəbul etmişdi: “Komissiya Azərbaycan Neft Sənayesi Nazirliyi rəhbərliyinin diqqətinə çatdırır ki, hazırda nazirliyin müəssisələrində çalışan bütün demokratların, ştat ixtisarı aparıldıqda belə, öz iş yerlərində saxlanması, üstəlik də onlara istehsalat təlimi üçün bütün şəraitin yaradılması, onlardan ixtisaslı neftçi kadrlarının hazırlanması zəruridir (20).

Mühacirlərin əmək sahəsində nailiyyətlər qazanmasının səbəblərindən biri onların peşə və ixtisaslara yiyələnməsi üçün partiya və dövlət orqanlarının müntəzəm ciddi səy göstərməsi idi. Bununla da onlara adi (qara) fəhlə kimi yox, mütəxəssis kimi çalışmağa şərait yaradılırdı. Yaşlı mühacirlər bilavasitə müəssisələrdə, yeniyetmə və gənclər o zaman fəaliyyət göstərən sənət məktəblərində, sonralar texniki peşə məktəblərində, həmçinin sənaye, nəqliyyat və inşaat yönlü orta ixtisas məktəblərində istehsalat peşələrinə yiyələnirdilər.

1985-ci il martın 1-ə olan məlumata əsasən 2012 nəfər mühacir texniki-peşə məktəblərini, 615 qadın tikişçi kurslarını bitirmişdi, 1627 nəfər orta ixtisas məktəblərində istehsalat yönlü peşələrə yiyələnmişdi (21). Yuxarıda qeyd olunduğu kimi, mühacirlər arasında artıq işsizlik yox idi. Halbuki həmin vaxt İran İslam Respublikasında rəsmi məlumatlara görə 2 milyon işsiz vardı. Qeyri-rəsmi məlumatlarda isə onların sayının 5 milyon olduğu göstərilirdi. İraqla müharibə aparıldığı ərazilərdən əhalinin miqrasiyası da nəzərə alınsa, həmin rəqəmin 7 milyona çatdığını ehtimal etmək olardı (22).

Qeyd etdiyimiz kimi, mühacirlərin əmək fəaliyyəti ilə əlaqədar yalnız Moskvanın tənzimləmədiyi məsələlər həllini tapmırdı. Belə məsələlərdən biri qanunvericilik yol vermədiyi üçün həmkarlar ittifaqlarının üzvü olmadıqlarına görə əmək qabiliyyətini müvəqqəti itirən mühacirlərə müavinətin verilməməsi idi.

1947-ci il oktyabrın 21-də T.Quliyev, Ə.Əzizbəyov və M.İbrahimov tərəfindən mühacirlərin işi ilə əlaqədar M.C.Bağırova təqdim olunan arayışda təklif olunurdu ki, “dövlət idarələrində və müəssisələrində, o cümlədən neft sənayesində çalışan mühacirlərdən əmək qabiliyyətini müvəqqəti itirənlərə müavinət verə bilməkdən ötrü onların həmkarlar ittifaqı üzvlərinə bərabər tutulması üçün Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasının (ÜİHİMŞ) sədri Kuznetsov qarşısında vəsatət qaldırılsın” (23). Arxiv sənədlərindən məsələnin 50-ci illərin ortalarınadək həll olunmadığı aydınlaşır (24).

İlk illərdə mühacirlərin mühitə uyğunlaşması ilə əlaqədar çətinliklər olsa da, sonrakı illərdə onlar artıq ölkənin əmək həyatının tərkib hissəsini təşkil edirdilər. Ölkənin əmək ritmi ilə yaşayır, sosialist öhdəlikləri qəbul edir və əlamətdar ildönümləri və siyasi hadisələr (Böyük Oktyabr Sosialist Inqilabının, V.İ.Leninin anadan olmasının, Azərbaycanda Sovet hakimiyyəti qurulmasının ildönümləri, Azərbaycan KP və

Sov. İKP qurultaylarının keçirilməsi və s.) ərəfəsində onları artırır, daha artıq yerinə yetirməyə səy göstərir və əsasən buna nail olurdular. ADF MK dövriliyi ildə 6 dəfə, tirajı 2 min olmaqla "Əmək cəbhəsində" adlı bülleten nəşr edirdi.

Mühacirlərin əmək fəaliyyəti yüksək qiymətləndirilirdi. Əmək qabaqcılları müntəzəm olaraq ADF MK-nın müraciətinə əsasən Azərbaycan KP MK bürosunun qərarı ilə Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinə (ÜİXTNS) göndərilirdilər (25). Azərbaycan KP MK-nın qərarına əsasən 1967-ci ildə Böyük Oktyabr Sosialist İnqilabının 50 illiyi münasibətilə mühacirlərin əmək fəaliyyətini əks etdirən iki kitabça (hərəsi 7 çap vərəqi həcmində olmaqla Azərbaycan və rus dillərində) çap olunmuşdu.

Mühacirlərə fərdi pensiyalar verilirdi. Azərbaycan KP MK-da ideologiya katibinin başçılıq etdiyi Azərbaycan KP MK yanında siyasi mühacirlərə fərdi pensiyalar təyin olunması və onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması məsələlərinə baxılması üzrə komissiya fəaliyyət göstərirdi (26). Arxiv sənədlərinin təxmini analizindən, hətta adambaşına düşən fərdi pensiyaların sayına görə mühacirlərin yerli əhaliyə nisbətən daha üstün mövqedə olduğu görünür. Mühacirlər sanatoriya-kurort müalicəsi üçün vaxtaşırı putyovkalarla təmin olunurdular.

Mühacirlərdən olan əmək qabaqcılları ölkənin ən yüksək fəxri adları, mükafatları, orden və medalları ilə təltif olunurdular. 1991-ci ilədək 3 nəfər Sosialist Əməyi Qəhrəmanı, 14 nəfər Lenin ordeni, 58 nəfər Qırmızı Əmək Bayrağı, 5 nəfər Xalqlar Dostluğu, 21 nəfər Şərəf Nişanı, 11 nəfər Üçüncü Dərəcəli Şöhrət ordeni ilə, 30 nəfər Əməkdə fərqlənməyə görə, 26 nəfər Əməkdə igidliyə görə medalı ilə, 133 nəfər SSRİ XTNS, 840 nəfər Sosializm yarışının qalibi, 480 nəfər Lenin yubiley medalları ilə, 854 nəfər Kommunist zərbəçisi döş nişanı ilə təltif olunmuş, 2884 nəfər nazirlik və idarələrin Fəxri fərmanlarını, 7922 nəfər Əmək veteranı adını almışdır (1, 12). Rəqəmlər tədqiqatımızın əhatə etdiyi dövrdə mühacirlərin əmək fəaliyyətinin yekunlarını aydın ifadə edir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan xalqının azadlığı yolunda mübarizlər. Bakı: Azərbaycan Demokrat Firqəsinin nəşri, 2005, 224 s.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA): f.1, siy. 89, iş 196, v. 86
3. ARPİİSSA: f.1, siy. 89, iş 196, v. 75
4. ARPİİSSA: f.1, siy. 32, iş 51, v. 61
5. ARPİİSSA: f.1, siy. 32, iş 180, v. 63
6. ARPİİSSA: f.1, siy. 89, iş 196, v. 78
7. ARPİİSSA: f.1, siy. 64, iş 138, v. 59
8. ARPİİSSA: f 1, siy. 89,iş 138 v. 63
9. ARPİİSSA: f.1, siy. 89, iş 198, v. 156
10. ARPİİSSA: f.1, siy. 89, iş 203, v. 30
11. ARPİİSSA: f.1, siy. 89, iş 197, v. 111
12. ARPİİSSA: f.1, siy. 89, iş 196, v. 77
13. ARPİİSSA: f.1, siy. 74, iş 60, v. 61
14. ARPİİSSA: f.1, siy. 67, iş 60, v. 61
15. ARPİİSSA: f.1, siy. 89, iş 188, vv. 22-26
16. ARPİİSSA: f.1, siy. 62, iş 133, v. 80
17. ARPİİSSA: f.1, siy. 62, iş 133, v. 81
18. ARPİİSSA: f.1, siy. 89, iş 198, v. 156

19. ARPİİSSA: f.1, siy. 89, iş 198, v. 134
20. ARPİİSSA: f.1, siy. 89, iş 198, v. 93
21. ARPİİSSA: f.1, siy. 74, iş 60, v. 62
22. ARPİİSSA: f.1, siy. 74, iş 60, v. 61
23. ARPİİSSA: f.1, siy. 32, iş 180, v. 64
24. ARPİİSSA: f.1, siy. 89, iş 187, v. 228
25. Azəroğlu B. Xatirələrim. Bakı: Nurlan, 2008, 224 s.
26. Haşimi Ə. Mübarizələrdə keçən ömür. Bakı: Maarif, 2002, 226 s.
27. Nəmini Ə. Mühacirətdə. Bakı: Yazıçı, 2002, 344 s.
28. Tahir S. Ayrılıq // Əsərləri, 20 cilddə, XIX c., Bakı: Şirvannəşr, 2010, s.13-161

## ТРУДОВАЯ ДЕЯТЕЛЬНОСТЬ ЭМИГРАНТОВ ИЗ ЮЖНОГО АЗЕРБАЙДЖАНА В СОВЕТСКОМ АЗЕРБАЙДЖАНЕ (1947-1991 гг.)

**Х. А. БАЛАЕВ**

### РЕЗЮМЕ

В статье на основе обширных архивных материалов обстоятельно освещается многогранная трудовая деятельность эмигрантов из Южного Азербайджана в Советском Азербайджане и отмечается, что вопрос трудоустройства эмигрантов являлся вторым по своей значимости после их заселения. Приводятся многие факты о повседневной заботе руководства Азербайджанской ССР к вопросам трудоустройства эмигрантов и об их самоотверженном труде на различных отраслях народного хозяйства республики.

## LABOUR ACTIVITY OF SOUTH AZERBAIJAN IMMIGRANTS IN THE SOVIET AZERBAIJAN (1947 – 1991)

**Kh.A.BALAYEV**

### SUMMARY

Based upon a number of contemporary archieve papers, the article deals with the large number of labour activity of immigrants migrating from South Azerbaijan. After the immigration, the issue of provision of employment was of secondary importance. There are a lot of facts about the daily care of the leaders of Azerbaijan SSR to the immigration employment issue. Besides, many facts are illustrated on their labour in various agricultural branches of the Republic.